BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2006

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ QAFQAZ DAĞLILARININ MİLLİ-AZADLIQ HƏRƏKATININ BƏZİ FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**A.R.GÖYÜŞOV**
*Bakı Dövlət Universiteti*

Rusiyada fevral inqilabının qələbəsindən sonra müstəmləkə xalqlarının istiqlal arzularının həyata keçməsi üçün real imkanlar yaranır. Müxtəlif dövrlərdə çarizmin işğalına məruz qalmış xalqlar demək olar ki, inqilabın ilk günlərindən öz hüquqları uğrunda mübarizəyə başlayırlar. Ayrı-ayrı regionlarda yerli şərait milli-azadlıq mübarizəsinə öz təsirini göstərsə də ümumən müstəmləkə əsarətində yaşayan xalqların siyasi amalları bir çox hallarda üst-üstə düşürdü. Bu da onları mövcud əlaqələri möhkəmləndirməyə vadar edir, eyni zamanda yaranmış şəraitdən maksimum bəhrələnmək üçün səylərin koordinasiya olunması fikrinə rəvac verirdi.

Fevral inqilabı Rusiyada yeni hökumətin təşkili ilə nəticələndi. Rusiyanın bütün demokratik siyasi qüvvələrinin fikrincə ölkənin gələcək müqəddəratı seçkilər vasitəsilə təşkil ediləcək Müəssislər Məclisində həll olunacağından bu məclisin çağırılmasına qədər bütün səlahiyyətlər yeni hökumətə verilirdi. Öz növbəsində bu hökumətin səlahiyyətləri yalnız Müəssislər Məclisinin çağırılmasına qədər davam edəcəyindən o Müvəqqəti Hökumət adlanırdı. Lakin əslində Müvəqqəti Hökumət heç də bu dövrdə tam səlahiyyətlərə malik deyildi. Onunla paralel olaraq seçkili orqan kimi fəhlə, əsgər və kəndli deputatları sovetləri fəaliyyət göstərirdilər. Əksər siyasi partiyaların təmsil olunduğu həmin sovetlər, böyük şəhərlərdə xeyli nüfuza malik olduqlarına görə Müvəqqəti Hökumətin real rəqibinə çevrilmişdilər.

Sovetlərlə Müvəqqəti Hökumət arasında hakimiyyət səlahiyyətlərinin paylaşdırılmaması cəmiyyətdə qeyri-müəyyənlik yaradırdı. Nəticədə onlardan hansının daha çox nüfuza malik olması da son dərəcə mübahisəli bir məsələyə çevrilirdi. Bu da Rusiya imperiyasının mərkəzində ikihakimiyyətliliyin meydana çıxmasına gətirib çıxarırdı.

Mərkəzdə yaranmış bu vəziyyət həmçinin müsəlman regionlarındakı siyasi duruma da öz təsirini göstərirdi. Bununla belə inqilabdan sonra bölgələrdə yaranmış şəraitlə mərkəzdəki vəziyyət arasında bir sıra prinsipial əhəmiyyətli fərqlər də mövcud idi. Milli məsələ ucqarlardakı siyasi qütbləşmənin təməlində dayanan əsas amillərdən birinə çevrilmişdi.

Türk bölgələrinin müsəlman əhalisi istər Müvəqqəti Hökumətin yerlərdəki orqanlarında, istərsə də burada formalaşmış sovetlərdə çox az təmsil olunmuşdular. Digər tərəfdən, inqilabdan dərhal sonra türk xalqlarının özlərinin təşkilatlanması prosesi geniş vüsət almışdı. Bir müddət sonra isə yeni yaranmış müsəlman ictimai təşkilatlarının mərkəzləşdi-

rilməsi prosesi başlanmışdı. Nəticədə həmin mərkəzləşdirilmiş türk ictimai təşkilatları tezliklə bu bölgələrin mühüm siyasi amilinə çevrilmişdilər. Yerli türk xalqlarının böyük əksəriyyətlə məhz bu ictimai təşkilatları dəstəkləməsi ona gətirib çıxarmışdı ki, yerlərdə mərkəzdəki ikihakimiyyətlilikdən fərqli olaraq artıq üçhakimiyyətlilik mövcud idi. Bu təşkilatlar heç bir rəsmi səlahiyyətə malik olmasalar da, bir çox hallarda ictimai-siyasi hadisələrdə daha mühüm rol oynayırdılar. Təsadüfi deyildir ki, inqilabın ilk dövrlərində istər sovetlər, istərsə də Müvəqqəti Hökumətin yerli orqanları aralarındakı hakimiyyət mübarizəsində hər biri müsəlman ictimai təşkilatlarını öz tərəfinə çəkmək istəyirdi. Lakin müəyyən müddətdən sonra, xüsusən də yerli hakimiyyət orqanlarına (şəhər dumalarına və s.) keçirilən seçkilərdə müsəlman ictimai təşkilatlarının demək olar ki, bütün türk-müsəlman bölgələrində qələbə qazanması mərkəzdə bir-birinə qarşı az qala müharibə elan edən sovetlərlə Müvəqqəti Hökumət orqanlarının müsəlman ictimai təşkilatlarına qarşı əlbir fəaliyyət göstərməsinə gətirib çıxarmışdı. Bunun səbəbi isə rus siyasi qüvvələri tərəfindən imperiyanın mənafeyinin bütün digər siyasi məqsədlərdən üstün tutulması idi. İmperiya düşüncəsi hətta bir-birinə düşmən münasibət bəsləyən siyasi qüvvələrin ümumi mənafelər ətrafında birləşməsinə səbəb olurdu.

Rusiyada monarxiyanın süqutundan sonra imperiyanın mərkəzi bölgələrindən fərqli olaraq müsəlman bölgələrində ikihakimiyyətliliyin deyil, məhz üçhakimiyyətliliyin təsbit olunduğu tezisini daha bir təkzibolunmaz faktla da sübut etmək mümkündür. Məsələ burasındadır ki, 1917-ci ilin oktyabrında bolşevik çevrilişindən sonra yerlərdə Müvəqqəti hökumətin orqanlarının sıradan çıxmasından sonra heç də hakimiyyət dərhal sovetlərin əlinə keçmədi. Bölgələrdə sovetlərin hakimiyyətə yiyələnmək cəhdi milli qüvvələrin sərt müqavimətinə rast gəldi. Bu bir daha sübut edir ki, mərkəzdən fərqli olaraq fevraldan sonra yerlərdə siyasi hadisələrin aparıcı faktoru siniflər mübarizəsi deyil, müstəmləkə əsarətində yaşayan xalqların milli-azadlıq hərəkatı idi.

Fevral inqilabı təbii olaraq Terek və Dağıstan vilayətlərində də müsəlmanların siyasi aktivləşməsinə səbəb olmuşdu. İnqilabdan dərhal sonra Terek vilayətində çeçen, inquş, kabardin, balkar, osetin və s. xalqların milli şuraları formalaşmışdı.

Mart ayının 6-da isə Vladiqafqazda gələcək siyasi hadisələrin aparıcı amillərindən olacaq orqan - «Birləşmiş Şimali Qafqaz Dağlılarının Mərkəzi İcraiyyə Komitəsinin» təşkilat şurası yaradıldı. Bu təşkilatın yaradılması təklifini balkar xalqının nümayəndəsi olan Bəsyət Şaxanov vermişdi. Təşkilat komitəsinə B.Şaxanovdan başqa (sədr), çeçen Əbdülməcid Çermoyev, kabardin Pşemaxo Kotsev, dağıstanlılardan Bəşir Dalqat, kumık Rəşid xan Kaplanov və s. müsəlman ictimai xadimləri daxil olmuşdular. Lakin Terek vilayətində bütün müsəlman təşkilatlar sırf ictimai qurumlar idi. İnqilabdan sonra Terek vilayətinin rəsmi hakimiyyəti isə kazakların əlində qalmışdı. Məsələ burasındadır ki, Müvəqqəti Hökumətin qərarı ilə Terek kazak ordusunun atamanı M.Karaulov Terek vilayətinə komissar təyin olunmuşdu. Eyni zamanda, mart ayının 14-də Terek kazak ordusunun öz ayrıca hökuməti də təşkil edilmişdi. Vətəndaş İcraiyyə Komitəsində isə yuxarıda adı çəkilən dağlı liderlərin iştirakına baxmayaraq, burada da əksəriyyət rusların əlində cəmləşmişdi. Onun fəxri sədri də məhz kazak atamanı M.Karaulov idi.

Lakin dağlıların əksəriyyət təşkil etdikləri dairələrə komissarlar onların özlərindən seçilmişdi. Bunlar kumık Xasavyurt dairəsində R.Kaplanov, inquş Nazran dairəsində V.Cabagiyev, çeçen Vedeno dairəsində polkovnik Aduyev, kabardin-balkar Nalçik dairəsində knyaz X.Çecokov və s. idilər.

Terek vilayətinin başda Vladiqafqaz və Qroznı olmaqla şəhərləri isə qeyri-kazak rusların, daha dəqiq desək, arxasında bu şəhərlərin bolşevik təbliğatı nəticəsində nizamını itirmiş qarnizonlar dayanan Sovetlərin nəzarəti altına düşmüşdü.

Beləliklə, vilayətdə sovetlərin, kazakların və dağlıların iştirakı ilə real üçhakimiyyətlilik hökm sürməyə başlamışdı. Baxmayaraq ki, dağlılar nizami hərbi qüvvəyə, may ayına qədər isə güclü təşkilata malik deyildilər, lakin həm kazaklar, həm də sovetlər vilayətdə hakimiyyət uğrunda mübarizədə məhz dağlıları ən real rəqib hesab edirdilər. Özü də bu zaman inqilabdan sonrakı ilk vaxtlarda kazaklar qüvvələr nisbətini nəzərə alaraq, daha çox dağlılarla hakimiyyətin bölüşdürülməsinə meylli idilərsə, sovetlərlə dağlılar arasında nəzərəçarpacaq qarşıdurma mövcud idi və bu özünü gələcəkdə silahlı toqquşmalar şəklində büruzə verəcəkdi.

Dağıstan vilayətində isə vəziyyət istər Terek vilayətindən, istərsə də inqilabdan sonra digər müsəlman regionlarında yaranmış vəziyyətdən xeyli fərqlənirdi. Məsələ burasındadır ki, Dağıstanda Müvəqqəti Hökumətin yerli orqanları məhz müsəlmanlardan təşkil olunmuşdu. İstər komissarlıq, istərsə də İcraiyyə Komitəsi müsəlmanların nəzarəti altında yaranmışdı. İnqilabdan sonra rus məmurları adətləri üzrə yerlilər üzərindəki üstünlüklərini qoruyub saxlamaq üçün Dağıstanda hakimiyyəti ələ keçirməyə can atsalar da buna müvəffəq olmamışdılar. 1917-ci ilin mart ayının 9-da (22-də) Dağıstan əhalisi Temir-xan Şurada devrilmiş çar rejiminin yerli orqanları əvəzinə vilayətdə yeni hakimiyyəti təmsil edəcək Müvəqqəti Vilayət İcraiyyə Komitəsini seçmişdi. Bu orqana Dağıstanın 9 dairəsini təmsil edən 30 nümayəndə daxil olmuşdu. Onların içərisində müsəlman ictimai-siyasi həyatının və gələcək siyasi hadisələrin Z.Temirxanov, H.Bammatov, N.Tarkovski, D.Apaşev, N.Qotsinski, M.Daxodayev və s. kimi fəal üzvləri var idi.

Dağıstanda da Terekdə olduğu kimi, rus hakimiyyətinin dayağı rolunu iri şəhərlərin sovetləri oynayırdılar. Port-Petrovsk Soveti isə rusların bu bölgədə əsas dayaq nöqtəsi sayılırdı. 1917-ci il iyulun 22-də isə Port-Petrovsk Soveti dağlı azadlıq hərəkatı liderlərinin nəzarətində olan Vilayət İcraiyyə Komitəsi ilə əlaqələri kəsmiş və həmçinin sonradan Dərbənd və Temir-xan Şura sovetləri də həmin addımı təkrarlamışdılar.

Göründüyü kimi, Dağıstanda Terek vilayətindən fərqli olaraq inqilabdan dərhal sonra real ikihakimiyyətlilik meydana gəlmişdi. Lakin bu ikihakimiyyətlilik bizə Sovet ədəbiyyatından məlum olan klassik ikihakimiyyətlilikdən kəskin surətdə fərqlənirdi. Faktiki olaraq adı çəkilən Dağıstan şəhərlərinin bütün qeyri-müsəlman əhalisi sovetləri dağlıların hakimiyyət iddiası qarşısına çıxacaq amil kimi qiymətləndirib onu dəstəkləyirdilər. Dağlılar isə Vətəndaş İcraiyyə Komitəsinə öz milli orqanları kimi baxırdılar. Deməli, Dağıstanda ikihakimiyyətlilik rus-dağlı qarşıdurması şəklində mövcud idi. Qütbləşmənin bir tərəfində müsəlmanların tam nəzarətində olan yerli Müvəqqəti Hökumət orqanları, digər tərəfində isə sinfi və partiya mənsubiyyətindən asılı olmayaraq bütün rusların dəstəklədiyi sovetlər dayanırdı.

Danışılan dövrdə Şimali Qafqaz azadlıq hərəkatının digər bir özünəməxsus xüsusiyyəti burada ideya-siyasi inkişafın Rusiyanın digər müsəlman bölgələri ilə müqayisədə çox zəif olması idi. Əlbəttə bunun müxtəlif səbəbləri vardır. İlkin səbəblərindən biri Şimali Qafqazın ictimai-siyasi inkişaf səviyyəsinə görə bir sıra digər müsəlman regionlarından nəzərəçarpacaq dərəcədə geri qalması idi. Krımda, Azərbaycanda, İtilboyunda, qismən Türküstanda müsəlman ziyalılar siyasi həyatı canlandırır, ümumrusiya miqyasında ictimai-siyasi proseslərdə iştirak edirdilər. Bakıda, Kazanda, Orenburqda, Baxçasarayda, Daşkənddə mütərəqqi ideyaların yayılması üçün vacib olan müsəlman mətbuatı inkişaf edir, siyasi təşkilatlar yaradılır, bir sözlə milli hərəkat formalaşırdı. Ona görə də bu bölgələrdə ideoloji nöqteyi-nəzərdən inqilabdan sonra yeni yaranmış şəraitə uyğun hazır milli-siyasi qüvvələr var idi. Şimali Qafqazda isə vəziyyət bu cür deyildi. 1917-ci ildə yaradılmış Dağıstan təbliğat və təşviqat bürosunun yaydığı sənədlərdən birində bununla əlaqədar deyilirdi ki, "İnqilabın qələbə sevinci artıq keçmək üzrədir. İlk günlərin eyforiyası öz yerini hadisələrin düzgün dərk edilib dəyərləndirilməsi ehtiyacına verməkdədir... O yerlərdə ki, xalq içərisinə mütərəqqi elmi ideyalar yeridilir və əhali ictimai təşkilatlanmaya hazırdır işlər daha asan və səmərəli gedir... Lakin o yerlərdə ki, xalq mütləqiyyətin iradəsi ilə əsrlərin cəhalətində yaşamaqdadır və onların tək-tük mütərəqqi ideya daşıyıcıları xalqına dövrün xüsusiyyətlərini anlada bilməmiş və ya anlatmaq imkanına malik olmamışlar, bu yerlərdə çox ciddi çətinliklər vardır... Qafqazın dağlı xalqları da məhz belələrindəndir."[1] Eyni məsələni dağlı azadlıq hərəkatı liderlərindən olan Rəşid xan Kaplanov da I dağlı xalqları qurultayında etiraf edirdi. O deyirdi ki, "hadisələr bizi qəflətdə yaxalamışdır, biz nə hazır deyildik, nə də təşkilatlanmamışdıq".[2]

Şimali Qafqaz xalqları arasında dövrün mütərəqqi siyasi ideyalarının yayılmamasının əsas səbəbi isə ondan ibarət idi ki, Rusiyanın digər müsəlman xalqları dağlılardan fərqli olaraq müstəmləkə şəraitində yaşasalar da hətta bu mühitdə müəyyən siyasi, iqtisadi, mədəni inkişaf mərhələsi keçmişlər. Rusiya müsəlmanları mütərəqqi ziyalılar ordusu yetişdirə bilmiş, üsuli-cədid, rus-tatar və s. məktəbləri vasitəsilə maarifçilikdə çox ciddi nailiyyətlər əldə etmiş, Avropa nailiyyətlərinin təsiri altında milli mədəniyyətin inkişaf və modernləşməsinə müvəffəq olmuşlar. Həmin nailiyyətlər zəminində onlar müxtəlif milli inkişaf konsepsiyaları içərisində nəzəri axtarışlar aparırkən, dağlılar milli mücadilənin ən sərt növünü yaşamışlar. Onlar 300 il durmadan, çox qısa fasilələr verməklə azadlıq mübarizəsini əldə silah aparmaqda idilər. Məhz bu səbəbdən 300 il dinc yaşamaq imkanından məhrum olduqlarından, Rusiya imperiyasının tərkibində olarkən digər müsəlman xalqları kimi iqtisadi, mədəni, ictimai siyasi inkişaf imkanlarından kifayət qədər bəhrələnə bilməmişlər.

Eyni zamanda Şimali Qafqazın təbii şəraiti, keçilməz dağları, imperiya əsarətindən qismən də olsa qurtulmaq üçün dağlı əhalinin bu sərt təbii şəraitdə özünə qapanması, müstəmləkə zülmündən əlçatmaz dağlarda gizlənmək arzusu dağlı əhalisini dövrün ictimai-siyasi proseslərindən

[1] "Kaspiy" qəzeti, 13 iyun 1917.
[2] "Kaspiy" qəzeti, 14 may 1917.

kənarda qoyan amillərdən olmuşdur. Dağlı xalqları, əsasən də çeçenlər, çar Rusiyası tərəfindən heç vaxt tamamilə fəth edilməmişlər. Ərazilərinin işğal edilməsinə baxmayaraq Şimali Qafqazın sərt təbii şəraiti dağlılara imperiyanın eksponsionizmindən belə demək mümkündürsə qismən də olsa qorunmaq imkanı vermişdir. Onlar burada Rusiyanın assimilyasiya siyasətindən gizlənmiş, adət və ənənələrini qoruya bilmiş, mübarizələrini davam etdirmişlər. Burada çox maraqlı cəhət ondan ibarətdir ki, ruslar dağlı xalqları ilə təmasda daha çox özləri onların təsirinə məruz qalmışlar. Bununla əlaqədar Şimali Qafqaz azadlıq hərəkatının liderlərindən olan inquş Vassan Gəray Cabagi xatirələrində yazır: "Kafkasya, heç bir zaman qəti olaraq boyunduruğa boyun əyməmişdir. Heç bir qüvvət onun hürriyyət fikrini...yenilməsi mümkün olmayan enerjisini və mərdanə şücaətini söküb atmağa müvəffəq olmamışdır... Sankt-Peterburq hökuməti Avropa ölkələri qarşısında Şimali Qafqazda apardığı mübarizəyə haqq qazandırmaq üçün bunun özünün insani və mədəni vəzifəsi olduğunu bəyan edirdi... zira qurban gedən insanlar daha yüksək bir inkişaf səviyyəsində bulunuyorlardı. Məsələn, kazaklar, üzüm və ipək böcəyi yetişdirməsini çeçenlərdən öyrənmişlərdir. Bundan əlavə kazaklar, çeçenlərin milli geyimlərini, silahlarını da qəbul etmişlər və ata minmə tərzini təqlid etmişlərdir."[1] Eyni məsələni hadisəıərin digər bir iştirakçısı olan Ş.Erel də qeyd edərək yazır ki, "Çar müthiş İvan zamanında... kazaklar Kuzey Kafkasyalılara qarşı rus hüdudlarının müdafiəsiylə vəzifələndirilmişlərdi... Bunlar uzun müddət Kuzey Kafkasyalılarla iyi keçindilər və onlar kimi hərb etməsini, silah kullanmasını, ata minməsini öyrəndilər. Öz qiyafətlərini də tərk edərək qafqasyalıların qiyafətini aldılar".[2] Hətta bəzən ayrı-ayrı kazak yaşayış məskənləri – stanitsaları bütövlükdə müsəlmanlığı qəbul edirdilər.[3]

Ümumiyyətlə, özü-özlüyündə İslama mənsubiyyət Şimali Qafqaz dağlılarının ruslara qarşı həm mənəvi, həm fiziki mücadiləsində misilsiz rol oynamışdır. Dini amil ictimai-siyasi proseslərdə, o cümlədən milli-azadlıq hərəkatında o qədər mühüm rol oynamışdır ki, məsələn V.-G. Cəbaginin yazdığı kimi kabardalılar «rusların ehtirasına qarşı özlərini himayə altına almaq üçün Krım xanı ilə anlaşma yapıb ruslara qarşı daha qəti olmaq üçün İslamı qəbul etmişdilər»[4]. İlk növbədə çarizmin assimilyasiya siyasəti qarşısında dağlıların tab gətirə bilməsinin əsas səbəblərindən biri İslamın hər cür xarici təsirə münasibətdə mühafizəkarlığı və bu təsir qarşısında yaratdığı immunitet olmuşdur.[5] Eyni zamanda etnik cəhətdən çeşidli mənzərəyə malik Şimali Qafqazda məhz İslam özünün mənəvi-etik, ictimai norma və funksiyaları ilə burada mövcud olan etnik müxtəlifliyin siyasi proseslər zəminində qarşıdurma amilinə çevrilməsinin qarşısını almışdır. İslam ümməti konsepsiyası və buradan çıxan nəticələr Şimali qafqazlıların, xüsusən 19-cu əsrdə siyasi arenada bir bütün kimi çıxış etməsinin başlıca ideya əsası olmuşdur. Düzdur, burada İslamın özünün nisbətən bir-birinə yaxın forma, yəni məzhəb – təriqətlərdə yayılması da bu dinin bölgədə ayırıcı yox, məhz birləşdirici amil kimi çıxış etməsini təmin etmişdir. Qeyd etmək la-

[1] Cabağı W.-G. Kafkas-Rus mücadelesi.İstanbul,1967, s.51.
[2] Erel. Ş. Dağıstan və dağıstanlılar, İstanbul,1961, s.112-113
[3] "Kaspiy" qəzeti, 15 avqust,1917.
[4] Cabagi W.G. Göstərilən əsəri, səh. 29
[5] L'islam et I 'etat le monde D'aujourd`hui. P-1982, c.51-52.

zımdır ki, tarixən faktiki olaraq XX əsrin sonlarına qədər Şimali Qafqaz müsəlmanları Hənəfi və Şafii məzhəblərinə, nəqşbəndi və qadiri təriqətlərinə mənsub olmuşlar. Xırda texniki xarakterli fərqlər nəzərə alınmazsa bu cərəyanların bir-birinə həddən artıq yaxınlığı fərqlərin parçalanma əsasına çevrilməməsi ilə nəticələnmişdir. Beləliklə, İslam Şimali Qafqaz müsəlmanının mənəvi, məişət və siyasi həyatının fundamentinə çevrilməklə onun dil fərqlərinə baxmayaraq milli bütün kimi formalaşmasını təmin etmişdir. Nə qədər mübahisəyə səbəb olsa da bizim fikrimizcə burada dil deyil, məhz din milli xüsusiyyətin aparıcı amili funksiyasını yerinə yetirmişdir. Hər bir Şimali Qafqazlı üçün danışılan dövrdə onun müsəlman "mən"i üzvü olduğu ictimai toplumu müəyyənləşdirərkən ilkin əhəmiyyətə malik olmuşdur.

Bununla bərabər əlavə etmək lazımdır ki, Rusiyada çarizmin devrilməsindən sonra yaranmış ictimai-siyasi şəraitdə aktivləşən milli-azadlıq hərəkatı dövründə bu sahəyə kifayət qədər əhəmiyyətli bir yenilk də gətirilmişdir. Məsələ burasındadır ki, Şimali Qafqazın yerli liberal-demokrat ziyalıları güclənməkdə olan milli-azadlıq hərəkatının sırf dini xarakter daşımasının, beləliklə də hərəkatda liderliyin din xadimlərinə keçməsinin qarşısını almaq üçün siyasi gündəmə «Şimali Qafqaz müsəlmanları" məfhumu əvəzinə «Şimali Qafqaz dağlıları» məfhumunu daxil etməyə müvəffəq olmuşlar. Lakin hadisələrin sonrakı gedişi göstərmişdir ki, «dağlı» məfhumu Şimali Qafqaz aborigenlərinin bəlkə də məişət ümumiliyini özündə ehtiva etsə də siyasi cəhətdən özünü tam doğrulda bilməmişdir. Çünki liberal-demokrat ziyalıların bütün səylərinə və hətta bəzi uğurlarına baxmayaraq siyasi arenada aparıcı amil rolunu yenidən din oynamağa başlamışdır. Məsələn, 1918-1920-ci illər hadisələri zamanı məhz din amili osetin xalqının xristian və müsəlman icmalarının bir-birinə əks cəbhədə durmalarına səbəb olmuşdur. Məlumdur ki, Qafqazın işğalı dönəmində müsəlman olmayan osetinlər assimilyasiyadan yaxa qurtara bilməmiş, xristianlığı qəbul etmişlər. Professor B.V.Svitski yazır ki, "Osetiyanın Rusiya müstəmləkəsinə çevrilməsi prosesində mənəvi qılınc (xristianlığın yayılması – G.A.) Şimali Qafqazın digər bölgələrinin fəth edilməsində həyata keçirə bilmədiyi bir rolu oynamışdır."[1] Bu sitatı öz kitabında gətirən D.Z.Korenev əlavə edir ki, osetinlər arasında xristianlığın yayılması o dövr üçün mütərəqqi bir hal idi. Yalnız bunun (xristianlığın – G.A.) sayəsində osetinlər Şimali Qafqaz xalqları içərisində yeganə xalq olaraq öz əlifbasını, öz yazısını əldə etmişlər.[2] D.Z.Korenev sovet tarixçisi olsa da Rusiya dövlətçiliyi təəssübünü gizlədə bilmir. Məsələ burasındadır ki, xristianlığı qəbul edən osetinlər çox keçmədən Şimali Qafqazda imperiyanın dayağına çevrilmişlər. Şimali Qafqaz müsəlmanları imperiya ilə istiqlal mücadiləsi apardığı dönəmdə osetinlərin bir hissəsi çar imperiyası tərəfindən istiqlalçılara qarşı mübarizədə əlavə vasitə rolunu oynamışlar. Bununla əlaqədar Ratqauzer yazır ki, "Qədim zamanlardan müsəlman dağlılar tərəfindən sıxışdırılan osetinlər, təbii olaraq "xristian işğalçılardan" kömək gözləyirdilər, buna görə də digər dağlılara nisbətən ruslara daha çox sığınmışdılar. Hökumət dağlarda özünə sədaqətli dayaq yaratmaq məqsədilə maddi cəhətdən təminatlı osetinləri öz tərəfinə çəkmək üçün ciddi səy

---

[1] Записки Северо-Кавказского педагогического института. Владикавказ, 1933, с.41.
[2] Коренев Д.З. Революция на Тереке. Орджоникидзе, 1967, с.22.

göstərir, böyük məmnuniyyətlə onları hərbi qulluğa cəlb edir, onlar üçün hərbi və dini məktəblər açır və hətta bir çox tələbə osetinlərin maddi təminatını öz öhdəsinə götürürdü...Beləliklə, xalq arasında nüfuza malik osetin ziyalılarının böyük əksəriyyəti sədaqətlə rus hökumətinə qulluq edirdi, inqilab illərində isə irtica osetinlər içərisindən qüvvə toplayırdı".[1] Xüsusi qeyd etmək lazımdır ki, osetinlərin müsəlman hissəsi ilə xristian hissəsi arasında kəskin fərqlər var idi. Dini mənsubiyyətdəki fərqlilik siyasi ideallarin formalaşmasına ciddi təsir göstərmiş, millətin faktiki olaraq iki müxtəlif qütbə parçalanmasına gətirib çıxarmışdı. Müsəlman osetinlər istiqlal mücadiləsi dönəmində qardaş dağlılarla bir olduqları halda, xristianlar məhz rus kazaklarla koalisiyada çıxış etmiş və milli-azadlıq hərəkatının rəqiblərinə çevrilmişlər. 1917-1920-ci il hadisələrinin bilavasitə iştirakçısı, Dağıstan sosialist qrupunun rəhbərlərindən olan Ələkbər Taxo-Qodi bununla əlaqədar yazır ki, inquşlarla çeçenlər müsəlman osetinlərlə əlaqə yaratdıqları halda, kazaklar xristian osetinlərlə əlbir idilər və osetinlərin bu iki qrupu arasında düşmənçilik var idi.[2] 1917-ci ildə dağlı ictimai hərəkatının hakimiyyət iddiasına qarşı yaranmış Terek kazak ordusu hökumətinin tərkibində osetinlər də yer almışdı. 1917-1920-ci illərdə xristian osetinlər Şimali Qafqazda "Vahid, bölünməz Rusiya" ideyasının tərəfdarlarını dəstəkləmişlər. Məhz osetinlərlə bağlı məsələlər bolşeviklərin çar Rusiyasının imperiya ənənələrinə tamamilə sadiq olduğunu xüsusi göstərən nümunələrdəndir. Məsələn, məlumdur ki, bolşeviklərin könüllü Ağ ordu ilə apardığı mübarizə dönəmində, ağqvardiyaçılar hər cür muxtariyyətin əleyhinə olduqlarını, imperiyanın "vahid və bölünməz olduğunu" gizlətmədikləri halda, bolşeviklər əksinə, xalqların öz müqəddəratını təyin etmə hüququnu tanıdıqlarını bəyan edirdilər. Məhz bunun nəticəsində Denikin irticası dönəmində Şimali Qafqazda osetinlər imperiyanın dayağı kimi böyük əksəriyyətlə Denikini dəstəkləyir, inquşlar isə Ağ ordu ilə mübarizə apararaq dolayısıyla, bəzən isə denikinçilərdən gizlənənlərə yardım göstərməklə azadlıq vəd edən bolşeviklərə bilavasitə yardım göstərirdilər. Azərbaycan qəzeti o dövrdə yazırdı ki, "Osetiya üçün ən kəskin və müəmmalı məsələ onun İnquşetiya ilə münasibətləridir. Çünki... Osetiya həmişə inquşlarla kazaklar arasında baş verən qarşıdurmalarda inquşların düşmənləri ilə bir cəbhədə yer almışdır."[3] Lakin maraqlı burasıdır ki, bolşeviklər qələbə əldə etdikdən sonra osetinlərlə inquşlar arasında mövcud olan ziddiyyətlərin həllində özlərinin dünənki müttəfiqlərinin, yəni inquşların deyil, osetinlərin təəssübkeşləri kimi davrandılar. Səbəb isə odur ki, Rusiyanın dövlət quruluşu dəyişsə də, imperiya mənafeyi saxlanılırdı. Bolşeviklər çox gözəl başa düşürdülər ki, osetinlər Qafqazda rus dövlətçiliyinin əsas dayaqlarındandırlar, əksinə inquşlar öz azadlıqsevərlikləri ilə Rusiyanın imperiya mənafeyi üçün daimi təhlükədirlər. Məhz buna görə də Rusiyanın imperiya mənafeyinin irsi davamçısı kimi bolşeviklər osetinləri dəstəkləyirdilər. Sosialistlərin əslində heç də sinfi ideallar naminə imperiya mənafelərindən əl çəkmədiklərini daha bariz nümayiş etdirmək üçün "Naşe znamya" qəzetində çap olunmuş bir məqalədən misal gətirmək istərdim. Dağlı

[1] Ратгаузер Я.А. К истории гражданской войны на Тереке. Вакı,1928, s.109-110.
[2] Тахо-Годи А. Революция и контрреволюция в Дагестане. Махачкала, 1927, s.84-85.
[3] "Azərbaycan" qəzeti, 11 mart 1920.

azadlıq hərəkatının liderlərindən olan Heydər Bammatın guya "sinfi iç üzünü" açmaq məqsədini güdən bu məqalənin son sitatı əslində sosialistlərin sosial ədalət frazeologiyasının arxasında nəyin gizləndiyini aydınca göstərir. Burada deyilir: "Bu kampaniyanın (yəni milli-azadlıq hərəkatı liderlərinin - G.A.) məqsədi köhnə Nikolay rejiminin lozunqlarından olan "Dağıstan-dağıstanlılar üçündür" şüarının həyata keçirilməsidir."[1] Belə çıxır ki, Nikolay rejiminin məqsədi Dağıstanı əsl sahiblərinə qaytarmaq imiş? Məqalənin müəllifi sosialist Averbux Şimali Qafqazda qondarma siniflər mübarizəsi ideyasının deyil, məhz milli-azadlıq mücadiləsinin gücləndiyini görür və bu mücadiləni ən ağılasığmaz bir şeydə Nikolay rejimi ilə eyni ideallara malik olmaqda günahlandırırdı. Məncə artıq izaha ehtiyac yoxdur.

O ki, qaldı osetinlərin xristianlığı qəbul edib maariflənmədə əldə etdikləri nailiyyətlərə bu da mübahisəli məsələdir. Çünki Rusiya tərkibində müsəlman olub istər milli maarif, istər iqtisadi inkişaf, istərsə də milli mədəniyyəti inkişaf etdirmək baxımından osetinlərdən geri qalmayan, bir çox hallarda isə qabağa gedən azərbaycanlılar, tatarlar var idi. Şimali Qafqazın müsəlman dağlılarının milli maarif və mədəniyyətlərini kifayət qədər inkişaf etdirə bilməmələrinin səbəbi isə İslam deyildi. Yuxarıda deyildiyi kimi, osetinlər xristianlığın qəbulu ilə İlminskilərin özlərinin də etiraf etdikləri kimi assimilyasiya məqsədi güdən maarifçilik kampaniyasının qurbanı olduqları halda,[2] müsəlman dağlılar istiqlal savaşını dayandırmır, azadlıq uğrunda silahlı mübarizə aparırdılar. Nəhayət, osetinlər misalı rusların xristianlaşdırmadan imperiya mənafeləri üçün necə istifadə etdiklərini göstərən yeganə hal deyildi. Volqaboyunda üç türkdilli xalqdan ikisi, yəni tatarlarla, başqırdlar məhz müsəlman olmaları sayəsində assimilyasiyadan yaxa qurtara bilmiş, çuvaşlar isə məhz xristianlığı qəbul etməklə assimilyasiyadan daha çox ziyan çəkmişdir. Ə.Hüseynzadənin qeyd etdiyi kimi, türklər "məhz İslam sayəsində milliyyətlərini mühafizə edib tama bəqa edə, türk oğlu türk qala bilmişlər".[3] Şimali Qafqazı işğal edən Rusiya qafqazlılarla mübarizəsində ağlına belə gətirmədiyi və məhz dindən qaynaqlanan mərdlik, əsilzadəliklə qarşılaşmışdır. 1915-ci ildə Terek vilayəti rəisi çara təqdim etdiyi hesabat məruzəsində "təəssüflə" etiraf edirdi ki, yerli əhali, xüsusən çeçen və inquş əhalisi arasında adət o qədər güclüdür ki, hökumət xeyrinə xəfiyyəçilik edəcək və ya təbliğat aparacaq adam tapmaq qeyri-mümkündür. Hətta pulla ələ almaq cəhdləri də heç bir nəticə verməmişdir".[4] Məhz assimilyasiya siyasətinin uğursuzluğu imperiyanı burada yeni bir metoda, gələcəkdə sovetlərin təkrarlayacaqları vasitəyə, köçürmə siyasətinə əl atmağa vadar etmişdi. V.-G.Cəbaqi yazır: "Liberal" çar II Aleksandrın qardaşı Knyaz Mixail son müharibədən sonra dərhal imperator tərəfindən də sevinc ilə... imza edilmiş olan bir qərarnamə çıxardı. Qərarnamə, bütün adıgeylərə (çərkəzlərə) vadilərini bir ay içində tərk etmələrini əmr edir... Bu əmrə uyuldu və çərkəzlərin 4/5 dən çoxu... Türkiyənin Avropadakı ərazisinə, Anadoluya, Kiprə və Osmanlı İmperatorluğunun digər məntəqələrinə köçürüldü. Rəsmi sənədlər yalnız

---

[1] «Naşe znamya» qəzeti, 22 iyul 1918.
[2] Ratqauzer Ə.A. Göstərilən əsəri, s.109.
[3] Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda İslam ideologiyası və onun tənqidi. Bakı,1973, s.211.
[4] Ratqauzer Ə.A. Göstərilən əsəri, s.101.

1858-dən 1864-cü ilə qədər 398000 çərkəzin doğma ərazilərini tərk etmiş olduğunu bildirməkdədir... Qafqazı tərk etmiş və bu mühacirlərin yaşadıqları ərazilər isə kazaklara təhvil verilmişdir".[1]

Beləliklə, dini mənsubiyyət Şimali Qafqazda nəinki yenicə siyasi terminologiyaya daxil edilmiş «dağlı» terminini, hətta milli amili belə üstələməyə müvəffəq olmuşdur. Şimali Qafqaz dağlılarının istiqlal mübarizəsində islami şüarlar həmişə aparıcı mövqe tutmuşdur. Hətta məşhur Dağıstan bolşeviki U.Buynakski də etiraf edirdi ki, bizim əhali üçün hər şeyin meyarı məhz şəriətdir.[2] Buna görə də hətta kommunistlər də Sovet hökumətinin qurulduğu ilk dövrlərdə ictimai rəyi nəzərə alaraq özlərini şəriətin ən qatı tərəfdarı kimi göstərirdilər. Sovet hökumətinin bu bölgədə ilk qərarlarından biri məhz şəriət məhkəmələrinin qanuniləşdirilməsi idi. Dağıstanda şəriət məhkəmələri 1927-ci ilə kimi fəaliyyət göstərmişdilər. İ.Stalin öz çıxışlarının birində deyirdi ki, "Biz bilirik ki, dağlı xalqları arasında şəriət mühüm əhəmiyyətə malikdir. Sovet hakimiyyətinin düşmənləri şayiə yayırlar ki, sovetlər şəriəti qadağan edir. Mən RSFSR hökuməti adından bəyan edirəm: bu şayiələr yalan və böhtandır... Sovet höküməti belə hesab edir ki, şəriət dağlı xalqların adət və qanunu rolunu oynamalıdır».[3]

Şimali Qafqaz azadlıq hərəkatının özünəməxsus xüsusiyyətlərindən biri də burada qaçaqçılığın müstəmləkəçiliyə qarşı mübarizədə oynadığı xüsusi roldur. Ratqauzer yazır ki, çar məmurları qaçaqların bütün xalq tərəfindən dəstəkləndiyini etiraf edirdilər.[4] 1917-1919-cu illərdə kazaklara və Denikinə qarşı mübarizəsi ilə məşhurlaşmış çeçen Aslanbəy Şəripov «Kaspi» qəzeti səhifələrində qaçaqçılığın mahiyyətini açıqlayaraq yazırdı ki, «1859-cu ildə rus hökuməti Şamilə vəd edir ki, dağlıların məişətinin hüquqi əsası şəriət və adət üzərində qurulacaqdır. Lakin bu vədə əməl olunmadı.... Öz növbəsində "süngünün" adəti dağlının məişətindən zorla çıxartmaq təşəbbüsü də nəticəsiz qaldı. Adəti seçən qanundan kənar qalmaq məcburiyyətində idi və nəticədə qaçaqçılıq qanuna qarşı dayanmanın yeganə vasitəsinə çevrilirdi. Qanunun isə qanun olduğunu yaddan çıxardaraq ələ keçirməkdə aciz olduğu qaçağın hayıfını müxtəlif vəhşiliklərlə onun yaxınlarından və qohumlarından çıxması hərəkatın daha da geniş vüsət almasına səbəb olurdu».[5]

Bu dövrün tədqiqatçılarından olan D.Z.Korenev etiraf edirdi ki, «özünün bir çox xüsusiyyətlərinə görə qaçaqçılıq siyasi xarakter daşıyırdı və geniş xalq kütlələri ilə əlaqəli idi. On iki il yerli məmurları qorxu içində yaşamağa vadar etmiş «dağlar canişini» ləqəbi alan məşhur qaçaq Səlimxanın ələ keçirilməməsini yalnız bununla izah etmək mümkündür...Çar hökümət Səlimxana görə məsuliyyəti çeçen və inquş xalqlarının üzərinə qoyarkən əslində bu hərəkatın dağlı xalqlarının müstəmləkəçiliklə mübarizəsi olduğunu etiraf edirdi".[6]

Sözsüz ki, qaçaqçılıq bir fenomen kimi imperiya ərazisində yaşayan qeyri-müsəlman xalqlarının həyatında da mövcud olmuşdur. Lakin bu fenomen özünü müstəmləkəçiliyə qarşı müqavimət forması kimi siyasi-

---

[1] Cabaği W.-G. Göstərilən əsəri, s.72 .
[2] Борьба за власть советов в Дагестане. Махачкала, 1957, s.23
[3] C.Hacıbəyli. «İzbrannoye» toplusu, Bakı, 1993, s.15
[4] Ratqauzer Y. Göstərilən əsəri, səh.102
[5] "Kaspiy" qəzeti, 30 iyul 1917
[6] Korenev D.Z. Göstərilən əsəri ,s.20

ləşməsi və ictimai həyata təsiri nöqteyi-nəzərindən Qafqaz və Mərkəzi Asiyada müsəlmanlar arasında daha qabarıq şəkildə büruzə vermişdir.

## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ ГОРЦЕВ СЕВЕРНОГО КАВКАЗА В НАЧАЛЕ 20-ГО СТОЛЕТИЯ

**А.Р.ГЕЮШЕВ**

### РЕЗЮМЕ

Данная статья посвящена некоторым различительным особенностям национально-освободительного движения горцев Северного Кавказа развернувшегося с новой силой после падения монархического строя в России. Статья начинается с разработки авторской идеи о трансформации двоевластия сложившегося после февральской революции 1917 года на периферияx империи в троевластие с участием национальных образований. Далее следует сравнительный анализ уровня идейно-политического развития горского движения, а также рассматривается вопрос культурного обмена, в контексте взаимоотношений горцев с русскими переселенцами. Особое место в статье отводится колониальной политике «умеренной христианизации», а также роли ислама как в общественно-политической, так и в культурно-бытовой жизни горцев Северного Кавказа. Наконец в заключительной части затрагиваются проблемы депортации мусульман Северного Кавказа во второй половине 19-го века, а также некоторые аспекты абреческого движения.

## SOME PECULIARITIES OF THE SOCIO-POLITICAL LIFE OF THE NORTHERN CAUCASUS MOUNTAINEERS IN THE EARLY TWENTIETH CENTURY

**A.R.GEYUSHEV**

### SUMMARY

This article has been revising some different peculiarities of the Independent movement launched by the Northern Caucasus mountaineers after the collapse of monarchy in Russia. The author is trying to tackle the issues like the problems of power in the Muslim regions of the Russian Empire after the collapse of monarchy, ideological background of national-liberation movement, cultural exchange between Russian colonists and indigenous people of Northern Caucasus, and etc. Also there are slight analyses some other crucial issues of Russian colonization policy in this region.

Special place in this article was given to the role of Islam in the socio-political, cultural and common life of the Northern Caucasus Muslims. Finally the author is touching the problems of deportation of Northern Caucasus people by Russian Empire which took place in the second half of ninetieth century and some aspects of armed insurrection in this region.